# MÖHTƏŞƏM CAVADOĞLU OBRAZI

## "DÖNMƏZLİK YOLU" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR



*Mahmud ALLAHMANLI, professor*

Elə tarixi hadisələr var ki, bizdən uzaqlaşdıqca daha yaxından görmüş kimi oluruq; sanki həqiqətlər uzaqdan görünməyən tərəflərini bizə səxavətlə açır. Ötən əsrin son onilliyindəki hadisələri yaddaşımızda bərpa etmək, gözlərimizin önünə gətirmək sadəcə sıradan olan xatirələri canlandırmaq deyil. Bu, kifayət qədər zamanın ağrılarını öz yaddaşımızda bərpa etməklə tarixin müəyyən dövrünə obyektiv, bəlkə belə desək daha doğru olar, səmimi yanaşmaq imkanıdır.

Həmin dövrün faciəsini xarakterizə edən amillər çoxdur. Bunlardan biri də, zənnimcə, elə birincisi də cəmiyyətin qədərindən artıq siyasiləşməsi idi. Elə bil ki, çəkməçi də özünü siyasi təhlilçi hesab edirdi, taksi sürücüsü də siyasi iddialarla özünü mübarizə meydanında görür və nəticədən pay almaq istəyini heç gizlətmirdi də. Azərbaycan isə bir dünya modeli olaraq öz içərisindən qaynamaqda idi. Mərkəzdənqaçma meyilləri, psevdo müstəqillik ideyalarının daşıyıcıları ayrı-ayrı ərazilərdən baş qaldırmaqda idilər. Bunun da əsas səbəbi ondan ibarət idi ki, hakimiyyət uğrunda müxtəlif tərəflərin, bir-birindən fərqli qüvvələrin hakimiyyət ehtirasları qızışdıqca, mərkəzi hakimiyyət zəifləyir, ucqarlara təsir imkanlarını itirirdi.

Azərbaycanlıların tarixi məkanı olaraq sərhədlərimiz daxilində olan ərazini hifz etmək, qorumaq məsələsinin özü ayrıca bir problemə çevrilmişdi. İndi kimsəyə sirr deyil ki, Qarabağ ərazisindəki seperatçılar artıq öz istəklərinə müəyyən mənada çatmışdılar. Və bundan şirniklənən ayrı-ayrı qüvvələr şimaldan və cənubdan da Azərbaycanı təhdid edirdilər. Paytaxt Azərbaycanın beyin mərkəzidir. Təbabət adamlarının dediyi kimi beyinin müəyyən sahələri hərəkətdən qalırsa, orqanizmin digər tərəfləri iflic olur. Yəni Azərbaycanın tarixi faciəsinin kökündə beyin mərkəzinin ətrafa təsir gücündən düşməsi dayanır.

Siyasi qüvvələr Azərbaycanın tarixi taleyindən çox öz iddialarını gerçəkləşmdirmək istəyində idilər; bəzi qüvvələr özlərini hakimiyyətə daha yaxın və daha haqlı görürdülər. Bu da istər-istəməz cəmiyyətin siyasi cəhətdən qütblərə parçalanmasına səbəb olurdu. Bir sözlə, ərazilərin müdafiəsi, ölkənin sərhədlərinin təhlükəsizliyi məsələsi açıq-aşkar arxa plana keçmişdi. Daha cənub seperatizminin şimaldan təhdidlə istəklərini gizlətməyən sadvalçıların mövqelərini şərhə ehtiyac yox idi. Onsuz da Azərbaycanın içərisindəki Qarabağ seperatçıları kifayət qədər ərazini təsir dairəsinə almışdılar. Bir sözlə, dövlətçilik çökmək məqamına gəlmişdi; lap çökmüşdü desək də, daha doğru olar.Belə bir vaxtda Azərbaycanın sağlam düşüncəli siyasi xadimlərə xüsusi ehtiyacı var idi.

Ziddiyyətli dövrün, gərgin-psixoloji zamanın əhatə etdiyi fikir müstəvisinə, ictimai-siyasi düşüncə mövqeyinə Yaqub Məmmədov obrazı gəldi.

Yaqub Məmmədov siyasi həyata gəlişi ilə mürəkkəb hadisələrin qarşı-qarşıya gəldiyi dönəmdə, tam səmimi bir mövqe göstərməyə çalışdı. Qütblərə parçalanmış, hətta bir-birilə ölüm-dirim savaşında olmaq iddiasında olan insanları Azərbaycan mənafeyi naminə eyni müstəviyə gətirməyə çalışdı. İlk dəfə siyasi müxtəliflik mövqeyində olan adamların hakimiyyətdə təmsil olunmasına şərait yaratdı. Bununla da siyasi düşüncə aspektində barışmaz qüvvələri eyni müstəviyə gətirməyə müvəffəq oldu.

Yaqub Cavad oğlu Məmmədov 1941-ci ildə, Gədəbəy rayonunun Alnadab kəndində anadan olub. O, 1966-cı ildə Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin Pediatriya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Elmi şuranın qərarı ilə aspiranturada saxlanılıb. Sonrakı tərcümeyi-hal qeydləri haqqında danışmağa lüzum görmürəm. Bircə onu deyirəm ki, Yaqub Cavad oğlu Məmmədov AMEA-nın müxbir üzvüdür. Siyasi fəaliyyəti dövründə Azərbaycanın mənəvi yüksəlişi uğrunda mübarizəni özü üçün ideal olaraq qəbul edib. Tibb alimi olaraq nailiyyətlərinin nəticəsi kimi müxbir üzvlüyünü bir daha xatırlamaq kifayət edər. Bir çox yüksək dərəcəli rəsmi fəxri adların sahibidir. Yüksək ödüllərə layiq görülüb. Bütün bunlar öz yerində.

Əsas odur ki, insan hansı cəhəti ilə yadda çox qalır; yaddaşda özünün yerini hansı haqla qoruyub-saxlaya bilir. Bax bu barədə danışmaq əslində dövrə, zamana ədalətli münasibət demək olardı. Konkret və aydın şəkildə desək, dövrümüzün şahidi olan hər kəsin bildiyi kimi Yaqub Məmmədov siyasətdə səmimi mövqeyi ilə fərqlənən bir obraz oldu. Təkcə elə bu cəhəti onun tarixi taleyinə münasibətdə açar ola bilər.

Elə insanlar var ki, onların haqqında səmimi və aydın notlarla danışmaq elə onların yaşadığı dövr haqqında danışmaq deməkdir.

Mən inanıram ki, dövrün görkəmli ictimai-siyasi xadimləri xarakterizə olunarkən (kimsənin istəyindən asılı olmayaraq, həmin dövrlə bağlı olan aparıcı siyasi xadimlər həmişə təhlil müstəvisinə çəkiləcək) Yaqub Məmmədovun adı da kənarda qalmayacaq. Yəqin ki, müəyyən zaman keçdikdən sonra yazıçılar, tarixçi-publisistlər, görkəmli adamların həyatından yazan müəlliflər Yaqub Məmmədov obrazına da təkrar-təkrar müraciət edəcəklər. Bunun ilk nümunəsini Əli Rza Xələflinin "Dönməzlik yolu" adlı kitabı ilə də görmək mümkündür.

"Dönməzlik yolu"... Əli Rza Xələflinin ötən ilin son günlərində işıqlığa çıxara bildiyi bu kitab silsilə poemalardan və publisistik qeydlərdən ibarətdir. Müəllif elə kitabın titul səhifəsindəcə yazıb: "Görkəmli ictimai-siyasi xadim, akademik Yaqub Cavad oğlu Məmmədovun 80 illiyinə". Bu kitabın redaktoru Azərbaycanın tanınmış yazıçısı və alimi, filologiya elmləri doktoru, nasir Elçin Mehrəliyevdir. Kitabı ilk kompüter nüsxəsində (biz buna əlyazma deyirik) mənə təqdim edəndə daxilimdən gələn bir səslə rəğbətli münasibət bildirdim. Əlbəttə, bir çoxları bu gün ziddiyyətlərlə müşayiət olunan dövr haqqında danışmaq istəmir; ən yaxşı halda öz münasibətlərini sükutlu nəzərlərlə ifadə edirlər. Amma yəqin ki, beləlləri unudurlar ki, tariximizin taleyində rolu olan hər kəs zamanına görə öz qiymətini almalıdır.

Bu məqamda Nərimanova qarşı ikili münasibət, Rəsulzadəyə qarşı fərqli mövqelər, yaxud Mir Cəfər Bağırovla bağlı ziddiyyətli qənaətlər - hamısı gözlərimin önündən keçir. Burada nəyin düz, nəyin səhv olduğunun fərqinə varmaq başqa məsələdir. Ancaq onların heç birisini biz tariximizdən kənarda qoya bilmərik.

Zənnimcə, Əli Rza Xələfli də tarixə obyektiv yanaşma ilə münasibət bildirməyə çalışdığı obrazı bədii müstəviyə elə daxili-mənəvi tələbatının nəticəsi olaraq gətirib. Nəticədə "Dönməzlik yolu" adlı möhtəşəm bir ədəbi abidə ərsəyə gəlib. Kitaba "Ön söz" yazan filologiya elmləri doktoru Elçin Mehrəliyev yazısının əvvəlindəcə zaman və şəxsiyyət problemini diqqətə çəkərək əsərə konkret və aydın münasibət bildirir: *"Zaman və şəxsiyyət problemi milli ədəbiyyatımızı həmişə düşündürüb. Vətənpərvər duyğulu, geniş təfəkkürlü sənətkarlarımız bu mövzu vasitəsilə sosial-ictimai mühitdəki eybəcərlik və haqsızlıqları tənqid atəşinə tutub, ədalət uğrunda mübarizədə fədakarlıq göstərənlərin parlaq obrazını yaradıb, xoşbəxt cəmiyyət quruculuğu ilə bağlı fikir və ideyalarını bölüşüb. Bu baxımdan, istedadlı şair-publisist Əli Rza Xələflinin görkəmli ictimai-siyasi xadim, tibb alimi, akademik Yaqub Məmmədovun 80 illik yubileyinə həsr etdiyi "Dönməzlik yolu" adlı kitabı müasir ədəbiyyatımızın uğurlu nümunələrindən biri kimi dəyərləndirilə bilər"*. Mən Elçin Mehrəliyevin bu qeydlərini çox diqqətlə oxudum. Hiss elədim ki, "Dönməzlik yolu" kitabını həm bədii əsər kimi, həm tarixi publisistik örnək kimi, həm də, sözün həqiqi mənasında, Azərbaycanın tarixi taleyinə səmimi yanaşma nümunəsi olaraq doğru-düzgün araşdırıb. Kitab iki bölmədən ibarətdir. "Dönməzlik yolu" adı ilə təqdim olunan poemalar silsiləsinin birinci hissəsi "Dağlarda duman qaldı" adlanır. Bu hissədə müəllifin mövzuya sərbəst yanaşması, özünün ədəbi-fəlsəfi düşüncələrini ifadə etməsi xüsusilə təqdirə layiqdir. Çünki hər bir bədii əsərdə müəllif özünün dünyagörüşünü həyata, cəmiyyətə, ümumiyyətlə, tarixi gedişata ümumiləşdirici münasibətini bildirməli olur. Bu poemalar silsiləsində də müəllif birinci iki əsərində məhz özünün dünyagörüşünü ifadə edən poetik mətnlərini təqdim edir. Biz Əli Rza Xələflini "Söz doğrunun, düzündür" və "Könlümə yol aradım" adlı əsərlərində sözün həqiqi mənasında, şair-filosof kimi görürük. Birinci "Söz doğrunun, düzündür" əsəri sözün obrazlaşdırılmasına, sözün dəyər verilməsinə güzgü tutur.

"Söz doğrunun, düzündür" poemasında biz sözün fəxriyyəsini, tərifini görürük. Müəllif bu əsərdə sözü Azərbaycan klassiklərindən gələn ənənə ilə yeni dövrün düşüncəsində ucalıqlara qaldırır:

*Orxon-Yenisey boyu qayalarda yazılan*
*Xaqanların hökmünə bərabərdi, taydı söz.*
*Yaddaşlarda yaşayan kimsələrdi, kimlərdi,*
*Seçilmişlər sırası, sadalanan saydı söz.*

*Qürurunda yenilməz, bir kimsəyə baş əyməz,*
*Söz adını qoruyar, özünü yersiz öyməz.*
*Dilbilməzlər yanında bir çürük qoza dəyməz,*
*Doğruya güvənməyən yalan dildə zaydı söz.*

*Sözün Nizami yolu, "Hophopnamə" gücü var,*
*Başlasa da, hərb ilə sonunda sülh ucu var.*
*Sözün çiçəkli yazı, qızıl payız köçü var,*
*Alovları qış ütən, buz sındıran yaydı söz.*

Kifayət qədər poetik, kifayət qədər zəngin mənəvi mühitin bəhrəsi olan bu şeirin motivi göstərir ki, müəllif sözün tarixi inkişaf yolunu, mistikadan kənar həqiqi sivilizasiya ilə bağlayır. Və bununla da özünün sözə yanaşma gücünü göstərə bilir.

Müəllif sərrast, aydın, son dərəcə poetik misralarla sanki söz aləmini ilahi bir qüdrətlə gəzir və nəticədə sözün hökm sahibi olmasına haqq qazandırır.

*Bircə sözdə görərsən axırı, əzəli də,*
*Görərsən çirkini də, görərsən gözəli də.*
*Axtarsan Nəsimidə, arasan Füzulidə,*
*Mənaların qatında açılmayan laydı söz.*

*Həqiqət bir körpüdür əyrilər baxar, keçməz,*
*Halallar haram yeməz, haramlar halal içməz.*
*Görə-görə kor olan doğrunu, düzü seçməz,*
*Neçə yatmış vicdana haray-həşir, haydı söz.*

*Qismət ola yaxşıya meydanda mərd dolana,*
*Dünya mənim deyənin içində dərd dolana.*
*Hər kəsə nəsib olmaz ilhamı dörd dolana,*
*Xələfli yaxşı bilir haqdan gələn paydı söz.*

Poemalar silsiləsinin içərisində ikinci yeri "Könlümə yol aradım" fəxriyyə əsəri tutur. Burada bir-iki məqama diqqət çəkməyi vacib hesab edirəm. Müəllifin Yaqub Məmmədovun mənəvi mühitini əsas götürən kitabına bu fəxriyyələri daxil etməsinin səbəbi nədir? Əvvəla, hər bir müəlif mövzuya birbaşa gələ bilmir.

**(Davamı 7-ci səhifədə)**

# MÖHTƏŞƏM CAVADOĞLU OBRAZI

## "DÖNMƏZLİK YOLU" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR

*(Əvvəli 6-cı səhifədə)*

Doğru olaraq hər bir müəllif özünün mövzuya gələn yolunu açıqlamağa çalışır. Zənnimcə, doğru olaraq Əli Rza Xələfli də Yaqub Məmmədov obrazına gələn yolu sözdən başlamaqda haqlıdır.

Müəllif "Könlümə yol aradım" adlı poeması ilə az qala unudulmaqda olan ədəbiyyat tariximizin çox maraqlı janrlarından biri kimi fəxriyyə janrına müraciət edir. Nizaminin fəxriyyəsi var, Füzulinin fəxriyyəsi var, Xəqaninin məşhur fəxriyyəsi var... və digər sənətkarların da fəxriyyə janrına müraciətlə dəyərli əsərləri var. Elə bilirəm ki, "Könlümə yol aradım" poeması da bu dəyərli nümunələr arasında özünəməxsus bir yer tutucaq. Bu poemada müəllif Yaqub Məmmədov obrazını Cavadoğlu adı ilə təqdim edir. Və epizodik münasibət bildirir:

*Əzizim Cavadoğlu, yaş ötür, illər keçir,*
*Yaşamağa haqqını hər kəsə zaman keçir.*

*Qərinələr ötsə də, ucalardan ucasan,*
*Müdrikliyin taxtında qocalardan qocasan.*

*Qardaş olduq səninlə, düşüncə dağlarında,*
*Doğmalaşdıq tarixin təzadlı çağlarında.*

*Ruhuma qanad oldun, ilhamımda, təbimdə,*
*Səni ustad bilmişəm dərsimdə, məktəbimdə.*

Bu qısa, konkret, epizodik misraların özü bizə kifayət qədər əsas verir ki, inanaq; Əli Rza Xələfli Cavadoğlu (Yaqub Məmmədov) obrazına təsadüfi gəlməyib. O, bu obrazı real həyatdan qavrayıb, tanıyıb, əməlini, düşüncə yolunu axıracan öyrənib. Bu mənada bizim yaradıcı insanlarımız üçün Əli Rza Xələflinin bu yanaşması xüsusi bir örnək olardı.

Bundan sonra biz müəllifin Azərbaycanın tarixi taleyində yeri olan insan silsilələrinə, yəni görkəmli nəsil şəcərəsinə münasibətini təqdim edən əsərlərini oxuyuruq.

Yeni əsərlər gəlir: "Hər ocağın öz işığı", "Karvan gəlir, yola bax", "Dönməzlik yolu", "Ölüm maşının ağzında", "Bir atanın düz yolu", "Bir acı xatirə" çox maraqlı poemalardır. Ən başlıcası, cümhuriyyət dövrünün Azərbaycan istiqlalını qorumaq yolunda savaşan qəhrəmanlardan birinin taleyindən bəhs edən "Dönməzlik yolu" poeması dövrümüzün müvafiq dövrə münasibətdə yaranan ən dəyərli əsərlərindən biridir.

...Yaxud, "Bir acı xatirə". Bu poemada müəllif ikinci dünya müharibəsində Azərbaycanın və azərbaycanlıların müstəsna xidmətlərindən bəhs edir. Bu əsərdə azərbaycanlı əsgərin - komandirin humanistliyi, vətənə birmənalı münasibəti ön planda görünür. Düşünmək olar ki, belə əsərlərin təbliği faşizmə qarşı mübarizədə xüsusi əhəmiyyət kəsb edə bilər. Onu da deyim ki, bu əsərdə erməni xəyanətkarlığının da inandırıcı faktlarla göstərilməsi çox əhəmiyyətlidir. Sadəcə bəzi məqamlara fraqmental münasibətlər də bildirmək olardı. Ancaq kiçik bir parçanı təqdim etməklə bu barədə fikrimə yekun vurmaq istərdim. Bir sözlə, ermənin özünün dilindən deyilənləri dinləyək:

*Çox uğurlar görmüşdük Kərəmin sayəsində,*
*Qorunurdu bəxtimiz onun himayəsində.*

*Mənim yerlim Samvelin pozuldu kefi niyə?*
*Komandir Kərəm idi biz iki erməniyə.*

*Üç nəfər birgə getdik hava tutqun, boran, qar,*
*Öyrəndik mövqelərdə düşmənin nə sirri var.*

*Biz geri qayıdanda duyuq düşdü almanlar,*
*Ölüm yağdı güllələr, itdi iman, gümanlar.*

*Yaralandım orda mən, budumdan qan axırdı,*
*Taqətim kəsilirdi, canımdan can axırdı.*

*Kərəm yardım elədi, qoymadı qan itirim,*
*Qıymadı yarı yolda həyatımı bitirim.*

*Eşitdim Samvel deyir: ara, bunu qoy yerə,*
*Apara bilmərik biz - söylədi neçə kərə.*

*İgid Kərəm dedi, yox, onu burda qoymaram,*
*Belə xəyanət olmaz, dostu darda qoymaram.*

*Heysiz, halsız olsam da, bunları anlayırdım,*
*Ürəyimdə bəxtimi, günümü danlayırdım.*

*Samvel təkid eylədi, başına bir güllə çax,*
*Ölsün, gəbərsin burda... almanlar gəlir, bir bax!*

*Kərəm baxdı Samvelə bir tərs nəzər yetirdi,*
*Məni endirdi yerə, bəxtim belə gətirdi.*

Həmin hadisələr nə qədər bizdən uzaqlaşsa da, canlılığı ilə gözlərimizin önündə təkrarlanır. Demək, azərbaycanlı döyüşçü - komandir Kərəm ölüm-dirim savaşında yaralı erməni əsgərini tək buraxmır. Onu xilas edir. Amma yanındakı erməni əsgər öz həmyerlisini, hətta həmkəndlisini qoyub qaçmağı Kərəmə məsləhət görür. Kərəm sözün həqiqi mənasında, azərbaycanlı xarakterinin təsdiqi kimi əsərdə obrazlaşır.

Kitabın ikinci hissəsi "Ucalıq eşqi" poemasından ibarətdir. Bu poema da birbaşa Azərbaycanın görkəmli ictimai-siyasi, əməkdar elm xadimi Yaqub Məmmədovun həyat yolundan bəhs edir. Bu poemaya epiqraf kimi müəllif belə bir mətn gətirir: "O, böyük elmi yüksək siyasi əxlaqla birləşdirib mənəvi dəyərə çevirdi. Ümummilli liderimiz Heydər Əliyev hələ gəncliyində onun özünə demişdi: "Sənin böyük gələcəyin var". ...O, kim idi?". Doğrudur, bu mətndə ritorik sual da var. Çünki hər bir oxucuya məlumdur ki, söhbət parlaq düşüncə sahibi olan Yaqub Məmmədovdan gedir və bu düşüncə sahibinin kimliyini ilkin qavrayanlar sırasında Azərbaycanın o vaxtkı rəhbəri müdrik Heydər Əliyev də vardı. Müəllif müstəqil poema kimi təqdim etdiyi "Ucalıq eşqi" əsərini "Tanrıya üz tutdum" adlı poetik ricətlə başlayır. O, sanki yazmağa başladığı mövzunun ağrıları qarşısında tərəddüd edir. Ona görə də tanrıya üz tutub ondan kömək istəyir.

*Ey Tanrım, son anda sənin haqq əlin*
*Qolumdan yapışıb dayağım olub.*
*Bəlkə də, nə deyim, bir gəlhagəlin*
*Üstündə titrəyən ayağım olub.*

*Bağrıma köz düşüb çörək itirən*
*Doğmanın, ya yadın xəyanətindən.*
*Bəzən güc almışam dözüm gətirən*
*Vəfalı dərdimin dəyanətindən.*

*Ey Tanrım, bilirəm sənin divanın*
*Bir gün qurulacaq bu yer üzündə.*
*Bilirəm bitəcək sonu davanın*

*Bəxtinə gün doğar onda sözün də.*

*Gec gələn, güc gələn haqdan pay alar,*
*Titrəyər, diz çökər zorun hakimi.*
*Suallar önündə cavabsız qalar,*
*Bəsirət gözündən korun hakimi.*

*Ey Tanrım, könlümə yaz nəfəsi ver,*
*Sözümün çəməni al güllər açsın.*
*Ürək tellərində saz həvəsi var*
*Mizrab telə gəlsin, xal dillər açsın.*

Bundan sonra müəllif sanki özündə cəsarət tapır. Hər hissənin əvvəlinə və sonluğuna lirik şeirlərlə ovqat münasibəti bildirir. "İnsandan keçən yol" adlı hissədə biz Yaqub Cavadoğlunun insan obrazını görürük. Kövrək düşüncələrlə həyata münasibətini poetik düşüncələrlə əxz edirik.

Ümumiyyətlə, Yaqub Məmmədov kimi insanlar üçün elm və amal vəhdət düşüncəsidir. Onların elmi ilə amalı birləşdiyi üçün güclüdürlər. Müəllifin "Elmin və amalın birliyi" adlı hissədə çox yığcam düşüncələr xülasəsi var: "Obraz və söz... Kim desə ki, bu iki kəlmənin arxasınca beş-on kəlmə ilə fikrimi yekunlaşdıraram, - əgər o təfəkkür sahibidirsə, ona inanmayın. Heç vaxt inanmayın ki, Yaqub Məmmədov haqqında kimsə, nəsə yazsa, danışsa, o sözünün yekununu deyə biləcək". Bu fikir bir qədər mübahisəli görünə bilər. Zənnimcə, müəllif burada təqdim etdiyi obrazın kifayət qədər aydın olan və həm də mürəkkəb mahiyyətini nəzərdə tutur. Sadəcə bir həqiqəti bilmək lazımdır ki, gərək obraza o qədər səmimi yanaşasan ki, onu axıracan duya biləsən. Özün qərəzkar deyilsənsə, özün fikirlərində ziddiyyətli deyilsənsə, təqdim etdiyin obrazda da aydınlığı axıracan görə biləcəksən. Müəllif bu düşüncələrinə maraqlı bir şeirlə münasibət bildirir:

*Yaqub Cavad oğlu - sözümün canı*
*İnsanlıq adına qürur, ucalıq.*
*Əməl kitabında Azərbaycanı*
*Bir könül evitək qurur ucalıq.*

*Elminlə amalın əl birliyində,*
*Bu yurda, Vətənə şərəf gətirdin.*
*Neçə bədxahların dil birliyində*
*Sənsə həqiqətə tərəf gətirdin.*

*Ömür yaşla deyil, qocasan deyim,*
*Min yaşlı İbn Sina ayaq üstədir.*
*Sən özün ucadan ucasan deyim,*
*Zaman şəxsiyyətlə dayaq üstədir.*

Ümumiyyətlə, bu əsər Yaqub Məmmmədov obrazının zamanla üz-üzə döyüş mövqeyində olan obrazını canlandırır. Elə əsərin bir hissəsi də "Zamanla üz-üzə" adlanır. Onu da demək yerinə düşər ki, görkəmli ictimai-siyasi xadim Y.Məmmədov bütün ömrü boyu itər sovet zamanında, istərsə də istiqlal uğrunda mübarizə dövründə baş verən ictimai-siyasi hadisələrə heç vaxt biganə olmayıb. O, öz dövrünün hadisələrini fikir süzgəcindən keçirib zamanına uyğun münasibət bildirib. Bu, onun tərəfindən ziyalı mövqeyinin ifadəsi idi. Çox sevindirici haldır ki, Y.Məmmədov özünün zamanla bağlı düşüncələrini elə "Zaman və həyatla üzbəüz" adlı publisistik qeydlər kitabında toplayıb.

Düşünürəm ki, bu kitab öz dövrünü yazan müəlliflərin ən üstün ənənələri əsasında qələmə alınıb. Yəni Y.Məmmədov təbiətinə uyğun olaraq rastlaşdığı hadisələri, başqalarına mübahisəli görünən məsələləri mümkün qədər obyektiv müstəviyə gətirib.

Biz özümüzdən əvvəl həyatı görmüş adamların ənənələri əsasında formalaşmağa çalışırıq. Mümkün qədər onların təcrübəsindən, həyata münasibət meyarlarından qaynaqlanırıq. Bir sözlə, özümüzdən əvvəlkilərdən öyrənirik. Və elə həyatın düzgün qurulma qanunu da təcrübə əsasında formalaşır. Yəqin ki, Əli Rza Xələflinin "Zamanla üz-üzə" adlı poetik düşüncələrinin qələmə alınmasında Y.Məmmədovun "Zaman və həyatla üzbəüz" adlı publisistik kitabının da təsiri olmamış deyil.

"Ucalıq eşqi" poemasının çoxlu məziyyətləri var ki, bu barədə danışmaq bir yazının işi deyil. Və bir məziyyəti də budur ki, əsər obrazın fikir, təfəkkür, düşüncə məkanının əks-sədası kimi üzə çıxır.

Müəllif xarakterizə etdiyi obrazı geniş fikir müstəvisində, qarşı-qarşıya gələn fərqli münasibətlər müstəvisində təqdim edir.

Əli Rza Xələfli "Dönməzlik yolu" kitabını kifayət qədər zamana istinadla yaradıb. Mənim yaddaşıma gəlir; kitabın "Ucalıq adlı" poema hissəsi ən azı 10-15 il bundan əvvəl "Kredo" qəzetində dərc olunmuşdu. Və xüsusi maraq doğurmuşdu oxucular arasında. Bizim həmkarımız Akif Əliyev də həmin əsər haqqında ilk dəfə rəy yazmışdı. O, poemaya münasibətini həyatdan tanıdığı Yaqub Məmmədovla bağlı xatirəsi əsasında şərh etməyə çalışmışdı. İnsafən Yaqub Məmmədov dünya şöhrətli tibb alimidir. Azərbaycan siyasətinə Ə.Xələflinin qeyd etdiyi kimi, özünəməxsus səmimiyyət gətirən siyasi xadimdir. Hər halda biz XX əsrin son onilliyindən tanıdığımız Y.Məmmədovu belə görürük.

**(Davamı 9-cu səhifədə)**

# MÖHTƏŞƏM CAVADOĞLU OBRAZI

## "DÖNMƏZLİK YOLU" KİTABI ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR




Onu da deyim ki, "Dönməzlik yolu" kitabında Yaqub Məmmədovun mənəvi mühitinə işıq tutan "Ucalıq eşqi" poemasında müəllif sözə münasibətinə təkrar-təkrar qayıdır. Və burada da biz onun "Sözün ünvanı" adlı düşüncələrini oxuyuruq. Mətnin hikmət çalarlarına varmaq istəyən oxucunu elə mətnin özünə baxmağa dəvət edirik. Bu mətndə müəllif görkəmli siyasi xadim, hüquqşünas İlyas İsmayılovdan belə bir sitat gətirir: "Tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılmasında həmin dövrdə baş verən hadisələrin birbaşa iştirakçısı və şahidi olmuş şəxslərin yazdıqları, söylədikləri daha qiymətli mənbədir". Müəllifin çox yığcam şəkildə öz sözünə ünvan tutduğu obraza münasibəti ad çəkilməsə də, ünvan göstərilməsə də çox aydın görünür. Ona görə ki, o, yazdığı, yaratdığı obrazı kifayət qədər aydınlığı ilə dərk edir, qavrayır.

*Üz tutdum işığa - düz adamlara,*
*Bağrının başında köz adamlara.*

*Dedim ki, düz sözdən bir ocaq çatım,*
*Düz sözlə bəzənsin ömrüm, həyatım.*

*Yaşayım, üzümə gülsün fəsillər,*
*Adımı hörmətlə ansın nəsillər.*

*Yaxşı adamlardan ibrət götürdüm,*
*İşıqsız olana işıq ötürdüm.*

*Nə vaxt ki, torpağa saf tum əkilər,*
*Bar verən zəhmətdən şərbət çəkilər.*

*Ağa ağ deyilsə, qaraya qara,*
*Düzə xətər gəlməz, doğruya yara.*

*Xeyirə verilsə bağbanlıq tacı,*
*Saralar, quruyar şərin ağacı.*

*Kəsilsə qabağı şərin, iblisin,*
*Yaxşılar əyilməz önündə pisin.*

Sərrast deyimdir. Sözün həqiqi mənasında, klassik səviyyədə olan aforizmlə bitən məntiqdir. Mətnin poetik gücü, təsir imkanı o qədər aydındır ki, əlavə şərhə ehtiyac qalmır.

"Yaqub müəllimlə söhbət" adlı hissədə müəllif İnqira Qandidən belə bir sitat gətirir: "Mən yalnız bircə tiran tanıyıram; vicdanın ruhumuzdakı səssiz səsini". Yəqin ki, müəllif bunu təsadüfi vermir. Əsərin bu hissəsindəki məntiqi hökm bu klassik düşüncənin məzmununa tabe tutulur. Yəni, Yaqub Məmmədov vicdanının səsi ilə həyatını, əməli fəaliyyətini tənzimləyən obrazdır.

Yaqub Məmmədovun ünvanına iftiralar, böhtanlar da az olmayıb. Hətta özünü söz adamı, şair kimi təqdim edənlər də belələrinin sırasında yer alıb. Bu münasibəti biz əsərdə "Şair dostuma məktub" hissəsində görürük. Zənnimcə, böhtançıya, qara yaxana tutarlı cavabın əlavə şərhə ehtiyacı yoxdur.

Əsərin çox dəyərli hissələrindən biri də "Xarratoğluna dediklərim" adlanır. Bu hissədə müəllif obrazın tərcümeyi-halına, nəsil yoluna diqqəti yönəldir. Görkəmli ictimai-siyasi xadim Cavadoğlu xarrat oğludur. Müəllif aydın və sadə bir məntiqlə halal zəhmətin bəhrəsi olaraq böyüyən insanın tale yoluna öz sözü ilə işıq salır.

*Böyük zəkalardan yaddaşda qalan,*
*Tarixə, zamana, çağa bənzəyir,*
*Bəzən dumanlarda görünməz olan*
*Böyük həqiqətlər dağa bənzəyir.*

*Atan taxda yonan bir dülgər idi,*
*Sən insan ömrünü cilalayırsan...*
*O, öz sənətində bir zərgər idi*
*Sən elmin zərgəri - seçib, ayırsan.*

*Hər sözün özü də işıqdı, nurdu,*
*Onu insanlığa səpib əkmisən.*
*Atan rəndə ilə taxta yonurdu*
*Sənsə fikirlərə rəndə çəkmisən.*

Maraqlı münasibətdir. Demək, Cavadoğlunun atası əyri taxtaları yonub, onu düzlük ülgüsünə çəkib. Müəllif isə qeyd edir ki, o özü fikirlərə rəndə çəkir. Əsər boyu belə müdrikanə yanaşmalara çox rast gələ bilərik. "Dövranın güzgüsündə" adlı mətndə Yaqub Məmmədovun özünün dilindən belə sitat verilir: "Qeyri-səmimilik yoluxucu bir xəstəliyə çevrilib. Ürək və göz arasından "çaylar axır". Sərrast deyib. Sanki dövrümüzün mənəvi düşüncə mühitini əks etdirir. Sonra əsərin daha parlaq, maraqlı hissələri gəlir: "Kənara çəkilmə...", "Tələbələr arasında", "Son görüşdən görüntülər"... Bu hissələr təkcə poemanın maraqlı parçaları deyil, həm də poeziyamızın çox dəyərli örnəkləridir. Çünki "Ucalıq eşqi" lirik ovqatda qələmə alınıb.

Əsərin növbəti hissəsi publisistikadır. Burada Yaqub Məmmədovun tərcümeyi-halı və onun əməli fəaliyyəti ilə bağlı zamanla həmahəng səsləşən yazılar da yer alıb. "Amalın və əməlin birliyində", "Azadlıq və istiqlal mübarizləri", "Siyasi gündəlikdən səhifələr", "Od içindən keçən yol" kimi yazılar unudulmayacaq fikir düşüncələridir. Bütün bunların hamısında biz görkəmli ictimai-siyasi xadim Yaqub Məmmədovun kimlik obrazının dəqiq cizgilərini görürük. Kitabda tanınmış alim Akif Əliyevin kiçik bir xatirə yazısı da verilib və müəllif kitaba "Həyatın yaşarı üzü" adlı son sözü ilə yekun vurur. Bu yazıda bir maraqlı məqam da diqqətimi çəkdi: *"Biz - yəni həyatı az-çox görən, bilən hər kəs - zamanı daha ədalətli hakim hesab edirik. Son qərinə ərzində Yaqub Məmmədov ardıcıl olaraq Azərbaycan dövlətçiliyinin, ümumi Vətən mənafeyinin tərəfində olub. Əgər belə demək mümkünsə, bugünkü mənəvi xəttimizin təqdir olunmasında onun da xidmətləri az deyil"*. Beləliklə, gələcəkdə haqqında çox dərin məzmunlu traktatlar yazılacaq bir kitab haqqında rəy qeydlərimi bitirirəm. İnanıram ki, gələcəyin ayıq gözlü hər bir insanı hər kəsi öz rəngində görə biləcək.

90-ci illərin əvvəlləri, Sovet imperiyasının çöküşü dövrü aradan 30 ildən çox, yəni bir qərinə qədər zamandan sonra keçmişə baxıb ən ziddiyyətli məqamları aydın görürmüş kimi fikir yürütmək çoxlarına asan gələ bilər. Ancaq həmin dövrün özündə müxtəlif əqidəli insanların az qala ölüm-dirim savaşına çıxdığı dövrdə həlledici söz sahibi olmaq kimsəyə asan gəlməsin. Bunun üçün gərək bütün varlığınla dəyərini əbədi olaraq itirməyən həqiqətin əsgəri ola biləsən.

Y.Məmmədov öz zamanında hətta, ona qarşı böhtanların, iftiraların yağış kimi yağdığı dövrdə belə kimsəyə qarşı qərəz göstərmədi. Ümumi milli mənafe naminə yalnız həqiqətlərə tapındığını öz əməli ilə göstərdi.

Siyasi tarixin incəliklərini yazanlar yəqin ki, Əli Rza Xələflinin "Dönməzlik yolu" adlı əsərinə də müraciət edəcəklər. Çünki tarixən sübut olunub ki, bədii həqiqətlər həmişə həyat həqiqətlərinə uyğun yazıya alınır.

"Dönməzlik yolu" təkcə bədii əsər kimi deyil, tarixi-publisistik sənəd kimi də öz dəyərini həmişə qoruyacaq.

10.09.2022